

Абшерон торпағы чох гәдим, сирләрлә долу бир сандыгдыр. Бу сандығы биз һәлә инди-инди ачырыг. Һәлә јүз илләрлә, мин илләрлә бу торпаг бизә өз гәлбини ачачаг. Биз ону севмәли, анламалыјыг, горумалыјыг. Талан етмәли дејилик.

Abşeron torpağı çox qədim, sirlərlə dolu bir sandıqdır. Bu sandığı biz hələ indi-indi açırıq. Hələ yüz illərlə, min illərlə bu torpaq bizə qəlbini açacaq. Biz onu sevməli, anlamalıyıq, qorumalıyıq. Talan etməli deyilik.

# ABŞERONUN ƏYİLMƏZ ŞAİRİ - HAŞIM BƏY SAQİB

## O AZƏRBAYCANDAN UZAQLARDA BELƏ TANINIRDI...

Haşım bəy Hacı bəy oğlu Heybətbəyov (Saqib) 1870-ci ildə Bakının Buzovna kəndində, tanınmış ruhani, ziyalı və tacir ailəsində dünyaya gəlmişdi.

Dövrünün ziyalı, zəkalı insanı, həmçinin sözü üzə əsl kişi kimi mərdanə deməyi bacaran Haşım bəy Saqibin adı heç bir dərslikdə, müntəxabatda, ədəbiyyat tarixi ilə bağlı kitabda olmayıb. Bolşevizmin, «sosializm quruluşu»-nun siyasətini ifşa edən əsərlər müəllifini o vaxt heç bir naşir qorxudan nəşr edə bilməzdi. 1920-ci ilə qədər Bakıda, o cümlədən Azərbaycanda yaxşı tanınan Haşım bəy Saqibin yaratdıqları, xüsusilə «Kim-kimədir», «Hər kəs öz kefindədir», «Necə ah eyləməyim» adlı şeirləri, növhələri o vaxt geniş yayılmışdı. Həmin şeir və növhələri köhnə bakılılar, o cümlədən din xadimləri də yaxşı xatırlayır, hətta əzbər bilən də var. Şairin qızı Nuriyyə xanımın dediyinə görə bu şeirlərin ucbatından Haşım bəy Saqibə çoxlu təzyiqlər olubsa da, lakin şair öz əqidəsinə axıra qədər sadiq qalıb, xalqın dərdi-sərindən yan keçməyib.



Təbii ki, Haşım bəy Saqib haqda ətraflı məlumatı onun ortancıl qızı, Azərbaycan teatrı və kinosunun parlaq ulduzlarından sayılan Xalq artisti Nəcibə Məlikova da bilməmiş deyildi…

***

Heybətbəyovlar təkcə Buzovnanın deyil, eyni zamanda Bakının ən məşhur və qədim nəsillərindən biridir. Qəzəl, həcv, rübai, növhə və mərsiyələrini «Saqib» təxəllüsü ilə yazmış Haşım bəyin həyat və fəaliyyətini aşağıdakı qismlərə bölmək daha düzgün olardı: ruhani, tacir, şair, xeyriyyəçi, jurnalist;

Haşım bəy Saqibin atası Hacı bəy Heybət bəy oğlu məşhur taciriydi – Bakıda, Dərbənddə, Mahaçqala və Səmərqənddə iri

ticarət mərkəzlərinə şərikliydi. Atasının vəfatından sonra Haşım bəy də həmin şəhərlərdəki ticarət mərkəz və kontorlarına yiyə durdu və hətta bir neçə dövlətlə belə öz sərbəst alış-verişini davam etdirdi.

Haşım bəy ilk dini təhsilini ruhani atasından, sonralar atasının dostu və həmkəndlisi Kərbalayi Əziz İmaməliyevin öz şəxsi mülkündə təsis etdiyi mədrəsədə almış, «Qur?an»ı dəfələrlə oxuyub başa çıxmışdı. O, ərəb, fars, türk, özbək, cığatay, rus dillərini və ədəbiyyatını, islam, şəriət və ilahiyyat tarixini müstəqil, həm də mükəmməl öyrənmişdi. Haşım bəy Saqib, deyilənə görə Nizami, Füzuli, Firdovsi, Sədi, Hafiz, Xaqani külliyatını əzbər bilirmiş. O dövrün nüfuzlu üləma və ruhaniləri – ayətullah Axund Şeyx Qulamhüseyn, Axund Şeyx Molla Kamiyab (artist Sidqi Ruhullanın qardaşı), Hüseynqulu Sarabski, Hüseyn Ərəblinski, Sidqi Ruhulla, Mirzəağa Əliyev, Cabbar Qaryağdıoğlu, Xanəndə-milyonçu Seyid Mirbabayev, Mirzə Mənsur Mənsurov kimi şəxsiyyətlər Haşım bəy Saqiblə yaxın dost olmuş, elmi-dini, ədəbi və musiqi məclislərində onunla tez-tez görüşmüşlər.

Yazılı mənbələrdən və şəxsi arxivlərdən məlum olur ki, Bakının bir sıra şairləri Haşım bəy Saqibə nəzirələr yazıb, Saqibin öz əsərlərində işlətdiyi misra, yaxud ibarələrdən faydalanıblar. Səməd Mənsurun «Haşım bəy Saqibə», Ağasəlim Fədainin «Kim-kimədir» nəzirələri bu qəbildəndir...

Haşım bəy Saqib 1931-ci ilin dekabrında qəflətən vəfat eləyib. Məzarı Bibiheybət qəbristanlığındadır. Lakin o dövrün mətbuatında şairin ölümü barədə nekroloqa rast gəlinmir...

# «TƏNG OLSA CƏHAN MÜLKİ...»

(Haşım bəy Saqib haqqında düşüncələr)

...Uşaqlıq xatirələri hamı üçün əzizdir. Buzovnadakı həyətimizdəki tut ağacının meyvələri kimi şirin olan həmin xatirələrin şah budağında isə bir insanın xüsusi məqamı vardır: ötən əsrin 20-30-cu illərində Bakıda və Bakının ətraf kəndlərində ad çıxarmış şair Haşım bəy Saqibin! O, anamın dost-doğma əmisi idi.

Klassik şeir ənənələrimizin layiqli davamçısı, Şərq poeziyasının mahir bilicisi Haşım bəy Saqibin «Divan»ının illər keçəndən sonra nəşri klassik ədəbiyyat və poeziya vurğunlarımızın haqlı olaraq böyük sevincinə səbəb oldu.

Bu qiymətli şeir nümunələrindən biri də zamanın ziddiyyətli məqamlarını özündə yaşadan, bu günün özündə də sevə-sevə xatırladığım «Kim-kimədir» adlı şeirdir. Çünki atamın və anamın Haşım bəy Saqibin «Kim-kimədir» şeirini necə böyük həvəslə, lakin çox həyəcanla əzbərdən oxuması uşaqlığımın silinməz bir səhifəsidir. Anam da Haşım bəyin qızı Nuriyyə xanım da deyərdi ki, yazdığı o şeirə və bir neçə başqa şeirlərinə görə vaxtilə Haşım bəy Saqibə çox təzyiqlər olmuş, lakin o öz əqidəsindən dönməmiş, zəmanəsinin və xalqının dərdlərinə əsərlərində yer verməkdə davam etmişdir...

Mən deyərdim ki, şairin, yazıçının fitri istedaddan savayı mütləq savadı da olmalıdır. Yəni, dünya ədəbiyyatının ən yaxşı nümunələrindən xəbər tutmalı, daha dəqiq desək, məncə yazdığından artıq mütaliə etməli, böyük mədəniyyətə sahib olmalıdır. Haşım bəy özünün cəmiyyətə baxışları, xovu-xasiyyəti, əməlləriylə əsli-nəcabətinə layiq, savadlı, eyni zamanda son dərəcə mədəni bir şəxs idi. O, bolşeviklər hakimiyyətə gələndən sonra «bəy nəslindəndir» deyə ona xor baxan, cəmiyyətdə sözü keçən ziyalıların hər addımını izləyən, «ədəbiyyat yalnız bolşevik ideyasına xidmət etməlidir» fikrini zorla yeritməyə çalışanlara öz münasibətini şeirlərində göstərirdi.

Haşım bəy Saqib sözü sözdən seçən, hər kəlmənin uca məqamını dəyərləndirən Ustad idi. Mötəbər şeir məclislərində camaat dəfələrlə bunun şahidi olubdur.

Anam İzzət xanım Haşım bəy Saqibin qardaşı Kərim bəyin ortancıl qızıydı. Babam da kəndin hörmətli adamlarından sayılıb. O, dini təhsil görmüşdü, ərəb, fars, türk, rus dillərini, bu xalqların ədəbiyyatını mükəmməl bilirdi.

Haşım bəy muğamata, onun incəliklərinə çox gözəl bələd idi. Təsadüfi deyil ki, görkəmli tarzən Mirzə Fərəcin sənətkarlığını, ifa tərzini yüksək qiymətləndirən Haşım bəy evində tez-tez muğam-şeir məclisləri qurar və bu məclislərdən xüsusi zövq alarmış...

...Buzovna ağsaqqallarından sayılan İsa kişi danışardı ki, – 1930-cu ildə kənddə atam Əliabbasla anam İzzət xanımın toy məclisi üç gün-üç gecə çəkib. Həmin toy məclisində Bakının və ətraf kəndlərin sayılıb-seçilən adamları, o cümlədən Haşım bəy Saqib, Məşədi Azər, Səməd Mənsur, Hacı Dadaş Qaib kimi söz və sənət xiridarları iştirak etmişlər. Deyilənə görə, xanəndə Cabbar Qaryağdıoğlu «Bayatı-Qacar» və «Mənsuriyyə» muğamlarını oxuyanda Haşım bəy Saqib göz yaşlarını saxlaya bilmir. Bunu görən xanəndə ayağa qalxır, onun üz-gözündən öpür. Sonradan Haşım bəy bu hadisədən təsirlənərək muğam ustadına – Cabbar Qaryağdıoğluna bir qəzəl də həsr eləyir.

Anam İzzət xanım – atası Kərim bəylə əmisi Haşım bəy Saqibin birgə ov etmələri barədə ağız dolusu danışardı. Bir qayda olaraq onlar şair Əbdülhəmid Mina və milyonçu-mesenat Şəmsi bəy Əsədullayevlə bir yerdə ov ovlar, ovdan sonra isə Buzovnadakı mülklərində məclis qurarlarmış.

Haşım bəy Saqibin babası Əliyar bəy də, şeir və sənət hamısıydı. Bir dəfə Əliyar bəy şamaxılı Mahmud ağa ilə birlikdə «Beytüş-səfa» məclisinin qonağı olmuş məşhur fransız yazıçısı Aleksandr Dümanın (yeri gəlmişkən, A.Düma – şərq əsilliydi Z.S.) Bakıya gəldiyini eşidir. Dərhal Aleksandr Düməni evinə dəvət edir, Buzovnadakı mülkündə bir neçə gün onu qonaq saxlayır, şərəfinə ziyafətlər verir, şeir-muğam məclisləri təşkil edir. Düma Əliyar bəydən minnətdarlıqla ayrılır, yerli şairlərin, peşəkar muğam ustalarının ifalarından çox məmnun qaldığını dilə gətirir. Əliyar bəyin qonağa, sözə-sənətə hörmət-izzətini sonralar Haşım bəy, Ağa bəy və mənim babam Kərim bəy də geniş ürəklə davam etdirmişlər.

Bir faktı da qeyd edim ki, Bakıda olarkən görkəmli rus şərqşünası Berezin 1837-ci ildə nəşr olunmuş «Qafqaza səyahət» adlı kitabında da Buzovnada Əliyar bəyin qonağı olmasından, onun evində şeir-musiqi məclislərində iştirakından bəhs edir...

Onu deyim ki, əslində həmin nəslin kökü çox dərinlərə gedir. Belə ki, Haşım bəyin atası Hacıbəy Heybətbəyovlar nəsli istər Buzovnada, istərsə qeyri Bakı kəndlərində ziyalı və xeyriyyəçi kimi tanınırdı. Həmin dövrdə onların xoş sorağı Türkiyə, İsveçrə, Fransa və Almaniyadan gəlirdi. Onlar Bakı xanlarının sarayına öz yaxınlığı ilə tanınır, həmçinin içərişəhərli Mansurovlar, Mirbabayevlər, Əsədullayevlər, Muxtarovlar ailəsi ilə dostluq edirdilər. Bütün bunları ona görə vurğulayıram ki, XX əsrin əvvəllərində Bakının inkişafı, yuxarıda adı çəkilən Bakı milyonçularının bu istiqamətdə gördüyü azman işlər, Abşeronun ab-havası, İslam ənənələrini daim uca tutan Bakı kəndlərində keçirilən poeziya, muğam və həm də təziyə məclisləri şairin yaradıcılığına öz təsirini göstərməyə bilməzdi.

Anamın dediyinə görə, 1931-ci ildə təkcə Heybətbəyovlar və Səmədzadələr nəslini deyil, Buzovnanı və Bakının ətraf kəndlərini bir acı xəbər sarsıtdı. Ömrünün 61-ci ilində Haşım bəy Saqib vaxtsız dünyadan köçdü. Şairin yas məclisinə Bakı, Buxara, Şəki, Dərbənd, Təbriz, Lənkəran, Şuşa, Səmərqənd şəhərlərindən belə din xadimləri, şair və ədiblər təşrif buyurdular. Bütün yas məclislərini şairin yaxın dostu, Əliağa Vahidin də ustadı olmuş Məşədi Azər aparmış və «Qur?an»ı da o oxumuşdu.

Haşım bəyin qızı Nəcibə xanım da Azərbaycanın teatr və kino sənətində özünəməxsus iz qoyub. Bu gün də Nəcibə Məlikovanın adı teatr-kino xadimləri sırasında hörmətlə çəkilir. Yaxşı xatirimdədir, onlar bizim bağa tez-tez gələr, keçmişi yada salar, ata-babalarımızın sənətə-sənətkara hörmət və rəğbətindən ürək dolusu danışardılar.

Etiraf etmək istərdim ki, dövrünün qüdrətli söz ustadı, müqtədir şair, «Məcməüş-şüəra» ədəbi məclisinin üzvü, xeyriyyəçi Haşım bəy Saqibin əsərləri sovet dövründə demək olar ki, çap üzü görməmişdi. Bu biganəliyi ilk dəfə Rəhimağa İmaməliyev aradan qaldırdı. O, 1996-cı ildə «Boz oğuz» nəşriyyatında Haşım bəy Saqibin şeirlərindən ibarət «Kim-kimədir» adlı kitabı nəşr etdirdi. Lakin bu kitab Haşım bəy Saqibin yaradıcılığının çox az bir hissəsini əhatə edirdi... Nəhayət, Haşım bəy Saqibin əsərlərini Azərbaycan Milli Elmlər Akademiyası Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi işçisi Hacı Mustafa Əliyev bir yerə toplayaraq klassik «Divan» üslubunda tərtib etdi. Qeyd edim ki, Hacı Mustafa Əliyev şair-qəzəlxan, füzulişünas-alim, klassik ədəbiyyatımızın və muğamlarımızın gözəl bilicisi, unudulmaz dostum Hacı Mail Əliyevin oğludur. Atalar misalı var: «Ot kökü üstündə bitər». Yeri gəlmişkən deyim ki, Milli mədəniyyətlərə qloballaşmanın, yad təsirlərin gücləndiyi bir şəraitdə milli mənəvi dəyərlərimizi qoruyan insanlara hər zaman minnətdar olmalıyıq. Sanki Haşım bəy Saqib «Qalmaz» rədifli qəzəlinin son beytini bu günü görərək yazıbmış:

Təng olsa cəhan mülki sana,
səbr elə, Saqib,
Dut fərqü fənani,
kişi təşvişdə qalmaz.

**Ziyad Səmədzadə**
*akademik*